# Müstəqil, güclü Azərbaycanın uğur fəlsəfəsi



## Xalq-iqtidar birliyi, milli həmrəylik ölkəmizin bundan sonra da davamlı inkişaf edəcəyinə əminlik yaradır

***Prezident İlham Əliyevin 2003-cü ildən başlanan hakimiyyət dövrü Azərbaycan tarixinin epoxal hadisəsi olmuşdur. Onun əsasını cənab İlham Əliyevin fenomenal tarixi şəxsiyyəti, dövlətçilik fəlsəfəsi və qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq üçün tətbiq etdiyi strategiya və taktika təşkil edir.***

Dövlət başçısı İlham Əliyev bir-birinin ardınca 5 prezident seçkisində (2003, 2008, 2013, 2018, 2024) qələbəni təmin edərək, tamamilə orijinal dövlətçilik təfəkkürü nümayiş etdirmişdir. Cənab İlham Əliyev bir sıra dövlətlərin dünya tarixinə adını yazdırmış liderləri ilə müqayisədə yeni, fərqli bir dövlət başçısı fenomeni yaratmağa nail olmuşdur.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin fəaliyyətini xarakterizə edən ən mühüm cəhətlərdən biri də onun istər daxili, istərsə də xarici siyasətinin dinamik xarakter daşımasıdır. Bunu İlham Əliyevin dövlətçilik təcrübəsində özünü aydın şəkildə ifadə edən prioritetlərin dinamikasında görmək mümkündür. Bu baxımdan, cənab İlham Əliyev nəyi nə vaxt edəcəyini bilən, dediyi sözə əməl edən dövlət başçısı kimi adını tarixə yazıb. Prezident İlham Əliyev iyirmi iki illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir və güclü Ordu yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Ölkəmiz Avropa ilə Asiyanın qovuşuğunda yerləşdiyindən əlverişli geosiyasi-geostrateji mövqeyə, zəngin təbii ehtiyatlara və böyük sənaye potensialına malikdir.

**(davamı 5-ci səhifədə)**

si sahələrdə sində ölkəmizlə əlaqələrin



# Müstəqil, güclü Azərbaycanın uğur fəlsəfəsi

**Xalq-iqtidar birliyi, milli həmrəylik ölkəmizin bundan sonra da davamlı inkişaf edəcəyinə əminlik yaradır**

(əvvəli 1-ci səhifədə)

Ölkəmizin rəhbərliyi Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq müstəqilliyimizin möhkəmləndirilməsinə, demokratik islahatların həyata keçirilməsinə istiqamətləndirilmiş müdrik siyasət apardı. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil Azərbaycan dövlətinin müasir dövrdə hərtərəfli inkişafını həyata keçirən, onun zəngin siyasi irsinin layiqli davamçısı, xalqını sevən, onun rifahı yolunda əlindən gələni əsirgəməyən, dövlətçiliyimizin, ərazi bütövlüyümüzün keşiyində hər zaman möhkəm dayanan, ölkəmizi etibarlı tərəfdaş kimi dünya müstəvisində yüksək səviyyədə təsdiq edən görkəmli şəxsiyyət Azərbaycan Respublikasının Prezidenti, Müzəffər liderimiz İlham Əliyevdir. Prezidentliyinin ilk ilindən etibarən dayanıqlı inkişaf üçün əsaslı addımlar atılmışdır. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı.

Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər görüldü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verdi.

Müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünyada uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin icra edilməsində, ölkəyə investisiya axınında mühüm rol oynayan İlham Əliyevin respublikamızın dinamik və sabit inkişafı üçün müstəsna əhəmiyyəti olan neft siyasətinin incəliklərinə dərindən bələd olması və neft strategiyasını uğurla davam etdirməsi nəticəsində Azərbaycan regional iqtisadi inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmişdir. Ölkə Prezidenti kimi iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici dövlətlərlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu xətti haqqında müqavilələrin bağlanmasında və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətlərini xüsusi vurğulamaq lazımdır. Azərbaycan qazının Avropaya birbaşa nəqlini hədəfləyən "Şahdəniz-2", TANAP və TAP kimi yeni transmilli layihələr dünyanın ən iri və perspektivli enerji layihələrindən sayılır.

Dünyada enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil aktor kimi statusunu təsbit etdi. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verdi. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi nəhəng layihələrin icrasına nail olundu.

Ən əsası isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam təmin edilib və ulu öndərin torpaqlarımızın azad olunması ilə bağlı müqəddəs arzusu həyata keçirilib. Şanlı 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər edirdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi.

2023-cü ildə Xankəndidə, şəhərin mərkəzi meydanında Azərbaycanın Dövlət Bayrağının qaldırılması münasibətilə xalqımızı təbrik edən möhtərəm Prezidentimiz demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Bu gün müstəqil Azərbaycan dünyada geniş perspektivə malik olan bir dövlət, etibarlı tərəfdaş kimi dünya birliyində özünü təsdiq etmişdir. Eyni zamanda Qafqaz bölgəsində də regional liderliyini daha da gücləndirmişdir. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 2019-2023-cü illərdə isə böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edərək bir sıra institusional yeniliklərə imza atmış və sözügedən qurumun beynəlxalq müstəvidə nüfuzunun artmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası böyük türk dünyasının ayrılmaz hissəsi olaraq türk dövlətləri arasında əlaqələrin inkişaf etdirilməsində, Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə xüsusi töhfələrini vermişdir. 2024-cü il fevralın 14-də Prezident İlham Əliyev andiçmə mərasimi zamanı öz nitqində söyləmişdir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir... Bizim ailəmiz Türk dünyasıdır... Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin".

Müasir mərhələdə dövlətimizin başçısı İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə və mədəniyyət ocaqlarının tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilmişdir. İqtisadi islahatlar aparılmaqla yanaşı, ölkədə sosial siyasət həyata keçirilmişdir. Bu sözləri ilə son illərdə dövlət büdcəsinin dəfələrlə artırıldığını uğurların əsas mənbəyi kimi diqqətə çatdıran, ölkədə iqtisadi və sosial islahatların paralel aparılmasının vacibliyini qarşıya əsas məqsəd qoyan möhtərəm Prezidentimiz bütün sahələrdə yenidənqurma və quruculuq işlərini ölkənin gələcəyi üçün prioritet kimi dəyərləndirir. Əhalinin sosial müdafiəsi, xüsusilə ən həssas kateqoriyadan olan insanların sosial təminat məsələləri, bütövlükdə əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşdırılması ölkəmizin rəhbərinin daim diqqət mərkəzində olmuşdur.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər ərzində ictimai-siyasi həyatın bütün sahələrində sürətli inkişaf müşahidə olunur. Cənab İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən zaman bildirmişdi ki, ölkənin hərtərəfli inkişafı üçün fəal çalışacaq. Bu müddət ərzində regionda reallaşdırılan təşəbbüslər, layihələr əməkdaşlığın inkişafında da əsaslı dayağa çevrilib. Müstəqil siyasət, milli maraqlarımızın qorunması və multikultural cəmiyyətin inkişafı, milli-dini tolerantlıq uğurların təməl prinsipinə çevrilib.

Prezidentə etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edən, hədəflərini reallaşdıran, cəmiyyətin enerjisinin bu hədəflərə səfərbər edilməsilə insanların taleyində əhəmiyyətli faktora çevirən dövlət başçısı, lider xalqının, dövlətinin gələcəyinin qarant altında olmasına və dinamik inkişaf yoluna çıxmasına əsas yaradır. Azərbaycan coğrafi arealda sülh, tərəqqi və əməkdaşlıq adasına, habelə beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrilib. Bu amil getdikcə daha qabarıq hiss olunur, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında, beynəlxalq təşkilatların hesabatlarında bütün sahələrdə əldə olunan uğurlar təqdir edilir, respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır. Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar nəticəsində müasir Azərbaycanın müstəqilliyi daha da möhkəmlənib, ölkəmiz regional lider statusunu və qlobal əhəmiyyətini kifayət qədər gücləndirib.

Xalq-iqtidar birliyi, güclü milli həmrəylik ölkəmizin bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edəcəyinə əminlik yaradır. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır: "Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur". Xalqımız hər bir azərbaycanlının Prezidenti olan, milli maraqlara əsaslanan çoxşaxəli fəaliyyəti nəticəsində söz ilə əməlin vəhdətini yaratmış Liderə - dövlət başçısı İlham Əliyevə tam güvənir, Onun müstəqil Azərbaycanın gələcək tərəqqisi naminə zamanında qəbul etdiyi qərarların uğurlu icrası sayəsində ölkəmizin inkişafının davam edəcəyinə, xalqımızın firavanlığının və yüksək rifahının daimi olacağına inanır. Planetimizin müxtəlif bölgələrində münaqişələrin, siyasi iğtişaşların müşahidə olunduğu, hətta aparıcı ölkələrin belə iqtisadi - maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə Azərbaycanın inkişafı yüksək səviyyədədir. Bütün bu nailiyyətlərin arxasında güclü lider fenomeni dayanır.

**Mustafa KAMAL,**
**"Respublika".**